*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 yanvar 2019-cu il № 4 (2321) Qiyməti 30 qəpik


# "Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük"

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

*Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda Prezident İlham Əliyev əsas prioritet istiqamətlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə və ordu quruculuğu məsələlərinə də toxunub.*



- 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.

Azərbaycan Prezidenti daha sonra deyib:

- Bildiyiniz kimi, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə aparılan işlər arasında bu sənədin xüsusi yeri vardır. Beləliklə, Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapmışdır.

Biz ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirmişik. Bildiyiniz kimi, bu il Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcək. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, bizim uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir. Bu Konvensiyanın çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, bu sənədin imzalanması hər bir Xəzəryanı ölkənin böyük diplomatik və siyasi uğurudur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz bu ifadələr öz əksini tapıbdır. Danışıqların davam etdirilməsi prosesi başlanmışdır, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə bir fikirlər səslənirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə danışıqlar prosesi bərpa edildi. Xarici işlər nazirləri artıq bir neçə dəfə görüşmüşlər və danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Danışıqlar prosesi üçün yalnız bu format məqbuldur.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# "Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük"

(Əvvəli 1-ci səhifədə)



Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. 20 il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.

Biz dəfələrlə demişdik ki, Ermənistanda 20 il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Ancaq əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar buna göz yumurlar. İndi sual olunur, necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər. Axı, son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi.

Ona görə mən hesab edirəm ki, bu məsələ müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalıdır və kriminal rejimə 20 il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar. Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy, etiraf etsinlər ki, onlar 20 il ərzində cinayətkarlarla əlbir olublar və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı var.

Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olunub. Onların qəhrəmanları qorxaqdır, onların generalları oğrudur. Bax, budur, Ermənistanın indiki vəziyyəti. Müstəqilliyi cəmi 27 ilə bərabər olan bir ölkəni əgər 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil.

Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, biz keçən il əlbəttə ki, hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər var. Bizim ordumuzun döyüş qabiliyyəti artır və Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni, bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Sadəcə, danışıqlara ümid olduğu üçün biz danışıqlar yolunu hələ ki, əsas vasitə kimi görürük. Ancaq, eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılan işlər əlbəttə ki, çox yüksək qiymətə layiqdir. Uğurlu Naxçıvan əməliyyatında fərqlənən hərbçilərə dövlət tərəfindən müvafiq mükafatlar verilmişdir.

Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük. İki dəfə keçirilən hərbi paradda biz texnikamızın bir hissəsini nümayiş etdirdik. Mən onların arasında, əlbəttə ki, xüsusilə uzaqmənzilli "Polonez" və "LORA" raket sistemlərini qeyd etmək istərdim. Qarşı tərəfin bu sistemlərə qarşı heç bir müdafiə imkanı yoxdur. Bu sistemlər 300 kilometr və ondan çox məsafəni qət edərək çox yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvə ilə istənilən hərbi hədəfi məhv edə bilər. Mən bir daha demək istəyirəm, düşmənin elə bir hərbi hədəfi yoxdur ki, biz onu dəqiqliklə məhv edə bilməyək.

Bu sistemlərin əldə edilməsi əlbəttə ki, bizim hərbi gücümüzü daha da artırır. Eyni zamanda, keçən il yeni pilotsuz döyüş uçuş aparatlarının əldə edilməsi bizim hərbi gücümüzü daha da artırır. Əlbəttə ki, son illər ərzində hava hücumuna, raket hücumuna qarşı aldığımız sistemlər müdafiə potensialımızı gücləndirir və digər sistemlər bizim hücum gücümüzü artırır. Bunu hər kəs bilir. Hərbi sahədə baş verən hadisələr heç kim üçün sirr deyil. Qarşı tərəf də - düşmən də bilir və bilməlidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və bu il bu istiqamətdə əlavə addımlar atılacaqdır.

## Azərbaycan Müdafiə Nazirliyi İran tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeriyə və İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri general-mayor Əmir Hatəmiyə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Qardaş İran İslam Respublikası Silahlı Qüvvələrinə məxsus yük təyyarəsinin Kərəc şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində hərbi qulluqçuların həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi. Sizin ağrınız bizim də ağrımızdır.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm".

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO toplantısında iştirak edəcək

Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Hərbi Komitəsinin Qətiyyətli Dəstək missiyası formatında keçiriləcək görüşdə iştirak etmək üçün Brüssel şəhərinə (Belçika Krallığı) yola düşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir 15-16 yanvar tarixlərində NATO-nun Mənzil-Qərargahında Baş Qərargah Rəisləri səviyyəsində keçiriləcək.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 15-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

# Tibb xidmətinin rəhbər heyəti ilə təlim-metodiki toplanış keçirilib



*Yanvarın 15-də Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin, tibb hərbi hissə və müəssisələrinin komandirləri (rəisləri), birlik və birləşmələrin tibb xidməti rəislərinin iştirakı ilə 2018-ci tədris ilinin yekununa həsr olunmuş təlim-metodiki toplanış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Toplantıda çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev bildirib ki, ötən il ərzində ordu quruculuğunun bütün istiqamətlərində olduğu kimi, hərbi tibb sahəsində də qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib. Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin günü-gündən yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlər davam etdirilir.

Nazir müavini görülən tədbirlərin ordumuzda şəxsi heyətin sağlamlığının qorunmasında müstəsna rol oynadığını, eyni zamanda xəstəliklərin vaxtında aşkar olunması və profilaktik işlərin aparılması üçün həkimlərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

General-leytenant K.Vəliyev hərbi həkimlərin bundan sonra da vəzifələrinin öhdəsindən bacarıqla gələcəklərinə əminliyini ifadə edərək, 2019-cu ildə tibb sahəsində görüləcək işlərlə bağlı Müdafiə nazirinin müvafiq tapşırıqlarını vəzifəli şəxslərə çatdırıb.



Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev çıxışında 2018-ci ilin hazırlıq planına uyğun olaraq şəxsi heyətin tibb təminatına aid nəzərdə tutulmuş tapşırıqların bütövlükdə yerinə yetirildiyini, tibb hərbi hissə və müəssisələrin müasir diaqnostik cihazlarla komplektləşdirilərək xəstələrin tam müayinə olunmasına imkan yaradıldığını vurğulayıb.

Sonra tədbirdə 2018-ci tədris ilinin yekununa əsasən müalicə-profilaktika işinin vəziyyəti, bu sahədə görülən işlər və həyata keçirilən tədbirlərin nəticələri barədə məruzələr dinlənilib, 2019-cu ildə qarşıda duran vəzifələr müzakirə edilib.

# 20 Yanvar faciəsindən 29 il keçir

Azərbaycan hər zaman dünya maraqlarının toqquşduğu geosiyasi məkan olub. Bu səbəbdən Vətənimiz illərlə güclü dövlətlərin təcavüzünə məruz qalsa da, igid oğul və qızlarımızın tökülən qanları bahasına xalqımız ayaqda durmağı bacarıb, dünyaya Azərbaycan kimi müstəqil dövlətin varlığını sübut edib. Şah İsmayıl ənənəsini yaşadan oğullarımız XX əsrin əvvəllərində də dünyaya bəyan etdilər ki, Azərbaycan xalqı müstəqilliyi qazanmaq, onu yaşatmaq iqtidarındadır. Bir əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycan xalqı demək istədi ki, bir kərə yüksələn bayraq, bir daha enməz.

Bu istəyin, bu arzunun qarşısını heç bir qüvvə ala bilməz, hətta dünyaya meydan oxuyan Sovet İmperiyası olsa belə. Xalqımızın müstəqilliyini həzm edə bilməyən Sovet İmperiyası təpədən-dırnağa müasir hərbi texnika ilə silahlanan, ordusunu fövqəladə vəziyyət elan olunmadan 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə günahsız bir xalqın üstünə yeritdi. Həmin gecə nə uşağa, nə qocaya, nə də qadına aman verilmədi. Ancaq imperiya ordusu xalqımızın iradəsini, əzmini qıra bilmədi.

Baş vermiş faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirdi, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirərək, həmin əməliyyata rəhbərlik edənləri ifşa etdi. Bu, o zaman heç bir vəzifəyə sahib olmayan, adi vətəndaş statusuna malik olan bir insanın qəhrəmancasına atdığı bir addım idi. O, bütün Sovet İttifaqı Kommunist Partiyasına meydan oxudu, rejimə qarşı çıxdı və dünyaya göstərdi ki, Azərbaycan xalqının iradəsini 20 Yanvar qırğını əzə bilmədi. Qəddarlığı, insanlığa sığmayan vəhşiliyi ilə seçilən həmin gecə xalqımızın tarixinə Qanlı Yanvar kimi həkk olundu. Şəhidlik zirvəsinə ucalan yüzlərlə Vətən övladları qəhrəmanlıqları ilə bizlərə müstəqillik, azadlıq bəxş etdilər. Onlar daim böyük ehtiramla, sonsuz məhəbbətlə xalqımızın qəlbində əbədi yaşayıb, yaşayır və yaşayacaqlar.

Həmin faciənin qurbanları Bakının ən uca yerində - Şəhidlər xiyabanında dəfn olundular. Həmin yer hər birimizin müqəddəs and yeridir. Sonralar burada əbədi məşəl kompleksi ucaldıldı. Bu məşəl Şəhidlər xiyabanının bir simvoluna çevrildi. Daim yanan bu məşəl heç vaxt sönmür, bu da ondan irəli gəlir ki, şəhidlərin xatirəsi ölməzdir. Hər bir Azərbaycan vətəndaşı Vətənin azadlığı və suverenliyi uğrunda canlarını fəda edən qardaş və bacılarımızın əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir, göstərdikləri cəsarətlə fəxr edirlər. Hər il bütün dünya xalqımızın şəhidlərinə qoyduğu ehtiramın şahidi olurlar. Çünki hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələn insanların ucu-bucağı görsənmir, hər yer qırmızı qərənfillərə bürünür. Bütün bunlar bizləri bir-birimizə daha da yaxınlaşdırır. Bizə bəxş edilən müstəqilliyi gələcək nəsillərə daha da möhkəm təhvil verməli olduğumuzu bir daha dərk edirik. Bunun üçün həmişə həmrəy olmalıyıq ki, heç kim bizi qıra və baş əydirə bilməsin.




Hər zaman yumruq kimi bir olsaq, heç bir qüvvə bizə qalib gələ bilməz. Vətənimizin qədrini bilməli, heç vaxt onu düşmənin ayağına verməməliyik. Necə ki, Vətəndən uzaqda Macarıstanın Budapeşt şəhərində igid oğlumuz Ramil Səfərov bayrağımızı təhqir edən erməni zabitini cəzalandırdı. Onun atdığı bu addım bütün dünyaya sübut etdi ki, Vətən sevgisi bizlər üçün hər şeydən öndə gəlir. Milli Qəhrəman Mübariz İbrahimov ölümü ilə Vətənini canından da çox sevdiyini nümayiş etdirdi. Bizlər də hər an Vətənimiz Azərbaycana əl uzadan əlləri kəsməyə hazırıq. Düşmənlə təmas xəttində dayanan əsgərlərimiz də bir nəfər kimi bildirirlər ki, Vətənimiz bizlər üçün çox əzizdi, onun keşiyində durmaq hamımızın müqəddəs borcudur.

Artıq 20 Yanvar faciəsindən 29 il ötür, ancaq hər birimizin sinəsi 29 il bundan əvvəl olduğu kimi sızıldayır. Ölkə rəhbərliyi daim şəhidlərimizi və onların ailə üzvlərini diqqət mərkəzində saxlayır. Bu il də bütün respublikada olduğu kimi, ordumuzda da "20 Yanvar faciəsinin 29-cu ildönümü" ilə əlaqədar silsilə tədbirlər keçirilir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Bu da tarixdir...

*"N" hərbi hissəsi şərəfli və zəngin döyüş yolu keçib. Xalqımızın ümummilli lideri, əbədiyaşar komandan Heydər Əliyevin xeyr-duası ilə həyata vəsiqə alan "N" hərbi hissəsi Ağdərə, Ağdam, Füzuli torpaqlarının müdafiəsində yaxından iştirak edib.*

Unudulmayan, əbədi yaddaşlarda yaşayan hadisə isə 1998-2000-ci illərdə şəxsi heyətin ümummilli liderlə keçirilən görüşləridir. Dahi rəhbərin tövsiyələrini və məsləhətlərini fəaliyyətlərində əsas tutan Vətən müdafiəçiləri bütün döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişlər. Bütün bunlar barədə hərbi hissənin yaradılmasının 27-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ətraflı bəhs olundu.

Öncə ictimaiyyət nümayəndələri, Qarabağ Müharibəsi Veteranları, hərbi hissənin keçmiş döyüşçüləri, ehtiyatda olan zabitlər, hərbi qulluqçular dahi şəxsiyyət, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin büstü önünə əklil qoydular. Sonra Vətənimizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanların xatirəsi alovlanan məşəl kompleksinə qərənfillər düzdülər. Tədbir mərkəzi meydanda davam etdirildi.

Ümummilli liderimiz Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Polkovnik-leytenant Daşqın Bənnayev çıxış edərək bildirdi ki, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra dövlətçiliyin əsası olan ordu quruculuğuna xüsusi diqqət yetirdi. “Qısa müddətdə ordu quruculuğu sahəsində məqsədyönlü tədbirlər həyata keçirildi. Ordumuzun maddi-texniki imkanları genişləndirildi. Düşmənə qarşı uğurlu döyüş əməliyyatları keçirildi, torpaqlarımızın bir qismi işğalçılardan azad olundu. Böyük quruculuq işləri Ulu Öndərin layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin iqtisadi, siyasi, hərbi qüdrəti daha da möhkəmləndirilib, respublikamız dünyanın inkişaf etməkdə olan ölkələri sırasında layiqli yer tutub, bir çox beynəlxalq tədbirlərin, görüşlərin keçirildiyi məkana çevrilib. Azərbaycan Ordusu dünya orduları sırasında öncül yerdə dayanır, regionun ən güclü, qüdrətli ordusu sayılır. Qürurla demək olar ki, Azərbaycan Ordusu qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə demişdir ki, Azərbaycan dövləti və xalqı heç vaxt işğalla barışmayacaq, necə olursa-olsun, torpaqlarını işğaldan azad edəcəkdir. İnanırıq ki, tezliklə Vətən torpaqlarını işğalçılardan azad edəcəyik.”

Zabit Amil Məhərrəmoğlu, İlyas İsmayılov, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyev və başqaları çıxış edərək ölkəmizdə ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğı görə Ali Baş Komandana minnətdarlıqlarını ifadə etdilər.

Xidmətdə fərqlənən hərbi qulluqçulara təşəkkür elan edildi, fəxri fərmanlar təqdim olundu. Nümunəvi xidmətlərinə görə əsgər valideynlərinə təşəkkür məktubları ünvanlandı. Təntənəli mərasim konsert proqramı ilə başa çatdı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# Bizi Böyük Qələbədən bir döyüş ayırır



## Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək.*

Soyuq, şaxtalı bir qış günündə şəhərdə sakini olduğumuz qatar bir-birinə bənzəyən relslərin üstündə ağır ləngərli hərəkətlə göyün yerlə birləşdiyi yerə - üfüqə, başlanğıcların son nöqtəsinə, müqəddəs torpağa doğru baş alıb gedir. Ürəyimdə gizli qalan hisslərimi çözələyərək, beynimin bir küncündə özünə yer salmış xatirələrimi canlandıraraq Azərbaycan əsgərinin görüşünə gedirəm. Düşünürəm ki, əsgərlərimizlə aprel və Günnüt zəfərlərini xatırlayacağıq, Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illik yubileylərində yaşanan qüruru birgə yaşayacağıq. Artıq bütün hisslərimi və xatirələrimi azadlığa buraxmışam... Yolboyu öz-özümə verdiyim suallar cavabını tapır, xatirələr canlanır. Ürəyim bir yelkəndir indi, səninlə doldururam, Azərbaycan əsgəri. Səninlə vaxt keçirməyin, səninlə yaşamağın və vaxtı səninlə bölüşməyin bənzərsiz həzzini duyuram...

Uzun bir yol arxada qalıb… Qəribədi, soyuq, şaxtalı qış havasından əsər-əlamət qalmayıb… Sənin qəlbinin hərarətidi qışın sazağını, şaxtasını yox edən, uca dağlardan səngərlərə üz tutan soyuq qış küləyini mülayimləşdirən.

Artıq səngərdəyik... Dəli bir eşq havası var-gəl edir başımda… Elə hey dolanır öz-özünə. Dolub durmuşam. Sonsuz səssizlik, ardınca səninlə kəlmələşməyin təsirindən çaxan şimşək və birdən ümidlərim yağdı üstümə yağış əvəzi… Qızışan, coşan buludlar, bədənimi isladan yağış damcıları sənin pıçıltılarının poçtalyonuna çevrildi, çıxartdı məni səssizliyimdən…

Mayor Nihat Abdullayevin "Vətəni sevmək, onu qorumaq, düşmənin hər cür hücum ehtimalına qarşı tədbirli olmaq, onun milli-mənəvi dəyərlərini qorumaq, uğrunda canını fəda etmək biz hərbçilərin qarşısında duran müqəddəs vəzifədir" sözləri də sükutu pozur, məni səssizliyimdən çıxarır və Azərbaycan əsgəri ilə söhbətə körpü salır.

Həmkarım söhbət zamanı bildirir ki, Vətənin keşiyində dayanmaq onun üçün hisslərin ən alisinə çevrilib: "Fəqət, bu ali hissi anlamından da çox... yaşamaq lazımdır. Bu hissi yaşamadan fikir söyləmək doğru deyil. İndiki situasiyada bu hissi yaşamaq və xalq-ordu birliyindən doğan gücü gələcək nəsillərə daşımaq vacib şərtdir. Ordumuzun bu gücə qovuşmasında xalq-ordu birliyinin mühüm rolu var. Bu gün xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması nəticəsində məğlubedilməzliyi və qələbə əzmi daha da artan Azərbaycan Ordusunun şəxsi heyəti bütün döyüş tapşırıqlarının öhdəsindən layiqincə gələrək işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Ona görə də bütün za-



bitlərimiz əsgərlərimizə bir ali məqsədə nail olmaq - torpaq və millət naminə xalqımızın Qələbəsini təmin etmək üçün birlik və həmrəylik aşılayır. Onlar yaxşı bilirlər ki, tarixi qələbə mən və səndən yox, bizlərdən və müqəddəs birlikdən asılıdır. Bu birlik də var. Bu birliyin sayəsində tarixi Qələbədən bizi bir addım ayırır".

Gizir Aydın Əhmədov Azərbaycan Ordusunun şəxsi heyətinin nail olduğu inkişaf nəticəsində möhkəm birlik əldə edildiyini əminliklə qeyd edir. Bildirir ki, aprel döyüşləri bu birliyi daha da möhkəmləndirdi: "Əmin olduq ki, tariximizə dayanan, keçmişimizə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, heç kim bizim Vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub bizim. Aprel döyüşlərində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyimizin fərqinə vardıq. Əsgərlərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazır idilər. Günnüt zəfəri də inamımızın, ümidimizin, mübarizliyimizin ölməzliyinin bir daha sübutu oldu".

Ağstafa rayonundan hərbi xidmətə çağırılmış manqa komandiri əsgər Ülvi Kərimov bildirir ki, xidmət etdiyi müddətdə hərbin sirlərinə dərindən yiyələnməyə çalışıb. "Əsgər kimi üzərimə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışmışam. Qarşıda gördüyünüz dağın o tərəfində tarixi torpaqlarımız yerləşir. Hərbi xidmətə gəldiyim gündən bütün torpaqlarımızın azad edilməsində yaxından iştirak etmək arzusundayam. Bütün arzularım həyata keçib. İnanıram ki, bu arzum da tezliklə həyata keçəcək".

Əsgər Saleh Əliyev qeyd edir ki, Mübariz kimi, Çingiz kimi qəhrəman oğullarımızın yolunun davamçısı olmaq və Şuşanı görmək ən böyük arzusudur. "Yaxşı bilirəm ki, müharibədə döyüş də var, şəhidlik də. Ancaq Vətənə görə döyüşürəm, torpaqlarımız üçün döyüşürəm, ölümdən qorxmadan döyüşürəm. Mübariz, Çingiz kimi oğullar şəhidliyi özü seçmişdi. Vətən üçün seçmişdi, xidmətdə olan əsgərlərə, çağırışçılara vəsiyyət kimi seçmişdi. Onların şəhidliyi biz əsgərlərə nümunədir".

- Hərbi xidmət həyatda mərd, cəsarətli olmaq hissini mənə aşıladı, - deyə əsgər Elnur Şirəliyev söhbətə qoşulur. - Burada valideynlərimin aşıladığı böyüyə və kiçiyə hörmətlə yanaşmaq fikirləri kollektiv arasında hörmət qazanmağıma yardımçı oldu. Qarşılığında zabitlərdən, gizirlərdən, tabe olduğum digər hərbi qulluqçulardan və əsgər yoldaşlarımdan qayğı və diqqət gördüm. Bu yolun yolçusu olmaq qərarına gəlmişəm. Tərxis olduqdan sonra gizirlik kursuna yazılmaq və Vətənimə xidmətimi davam etdirmək istəyirəm.



Əsgər Aqşin Xəlilov isə qeyd edir ki, aprel döyüşlərində, Günnüt zəfərində düşməndən azad etdiyimiz yüksəkliklər bizim üçün qələbə simvoludur. "Bir növ yaxın zamanda zəfər qazanacağımızın işarəsidir. Aprel döyüşlərində torpaqlarımızı tam azad etməsək də, döyüşərək mühüm əhəmiyyətli yüksəklikləri geri qaytarmağımız göstərdi ki, yaxın vaxtlarda Qarabağı tam olaraq düşməndən azad edəcəyik".

Əsgərlərdən Samir Rüstəmov, Loğman Hüseynli, Rza Aslanov və başqaları söhbət zamanı bildirirlər ki, ermənilərin bizim qədim yurdumuzun çaylarında necə çimdiyini, bulaqlarından necə su içdiyini, gülzar çəmənliklərinin çiçəyindən süzülmüş balından necə yediyini və s. görməmək üçün əlimizdə silah Vətən torpaqlarının müdafiəsində ayıq-sayıq dayanmışıq və Ali Baş Komandanımızın əmrini səbirsizliklə gözləyirik.

Bu sözlərin arxasında Azərbaycan əsgərinin düşmənə verdiyi Qələbə mesajı dayanır. İgid oğullarımız demək istəyirlər ki, tezliklə işğalda olan torpaqlarımızı azad edəcək, şəhidlərimizin qanını yerdə qoymayacaq və düşmənin cəzasını verəcəklər. Bu mesaj, həmçinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi "…Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Azərbaycan bayrağı Şuşada, Xankəndidə... dalğalanacaqdır", "…Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq" fikirlərinin təsdiqidir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Yaşatmaq yaşamaqdı



*Oçerk*

Mətləbinə, deyəcəyin fikrə söykək olsun deyə hərdən nə vaxtsa oxuduqların, eşitdiklərin yada düşür...

Yaşamaq gözəldi, qardaşım! - neçə onillər əvvəl türk şairi Nazim Hikmət belə deyib...

Yaşamaq gözəldi. Bəs yaşatmaq? - yaşadırsansa, yaşada bilirsənsə, yaşatmağı bacarırsansa, yaşamaq daha gözəldi, yaşada bilirsənsə, dəyərli ömür yaşayırsan. Belə ömürlərin işığı bəşərilik işığıdı. Bəşərin bu gününü sabahlara bağlayan belə işığın başlanğıcı olur, sonu olmur. Bu işıq sabahlar üçündü. Ömürlərə çökən, çökməkdə olan dumanı dağıdan həkimlər, təbiblər, loğmanlar belə ömür yaşayır. Belə ömürlərdə İbn Sınalıq zərrəsi olduğunu kimsə inkar edə bilməz...

Ünlü ürək-damar cərrahı Anar Əmrahın hocası - ustadı Harun Tatarın bir kəlamını yaşam fəlsəfəsinin zərrəsi bilənlərin sırasındayam: öz işini özün bəyən. Yəni, işini (müalicəni, əməliyyatı) olduqca məsuliyyətlə yerinə yetir ki, müaliсəyə, əməliyyata sərf olunan vaxt ömrünə yazılsın. O müddəti ömürləşdirə bilməsən, bir ömür boyu təəssüflənəcəksən, bu acı təəssüf səni son nəfəsinəcən izləyəcək. Sənə müraciət edənin müalicəsini (əməliyyatını) məsuliyyətlə yerinə yetir ki, sənə güvəncim, təbibim deyənin sağlamlığı təmin edilsin, baxışlarında uçunan minnətdarlığı könül xoşluğuyla yaşaya biləsən. Mərkəzi Hərbi Klinik Hospitalın kardiologiya bölməsinin rəisi, uzman, tibb xidməti mayoru Səməd Səmədli də belə könül xoşluğuyla çox yaşayıb, hələ çox yaşayacaq...

Təbiəti sevib, indi də sevir...

Təbiətə sevgi onun ürəyinə göz açıb da gördüyü Mollaoba kəndinin (Masallı) ecazkarlığından hopub, şübhəsiz. Talış dağlarının duruşunu da sevib, çeşmələrin, bulaqların axışını da, çiçəklərin baxışını da, yazın yağışını da, payızın yelini də, yazın-payızın coşub-daşan selini də, yayın istisini-bürküsünü də, budaqlarda yarpaqların türküsünü də, qışın qarını da. Təbiəti sevib, yaşamağı sevib - yaşatmağı qərara alıb. Bilib ki, yaşamın nizamını düzləndirən, nizamlayan həkimlikdi - həkimlərdi, təbiblərdi, loğmanlardı. Bu istək Mollaoba məktəbində oxuyanda qımıldanıb, şəhər 1 saylı orta məktəbdə təhsil alanda arzulaşıb, murazlaşıb, Səmədin təbiətə sevgisi insanlığa sevgisinin başlanğıcı olub, düşünürəm. Ona görə dönməzləşib, bəşəriləşib...

O da bilirdi ki, ata nəsihəti heç zaman faydasız olmur (Nizami Gəncəvi). Yaşam fəlsəfəsinin mahiyyətini oxuya-oxuya, öyrənə-öyrənə, atasının - Əlövsət həkimin söhbətlərini dinləyə-dinləyə dərk edib. Dərk edib ki, dünyanın nizamı pozulanda da, pozulmayanda da yaşatmaq - yaşamaqdı, yaşamaq - yaşatmaq!

Atasının söhbətlərindən eşitmişdi: Böyük Vətən müharibəsində azərbaycanlı həkimlər də fədakarlıqlar göstərib. Səmədi belə söhbətlərin mahiyyətimi çəkmişdi? Yoxsa Qarabağda gedən döyüşlərdə yaralananlarımızı səhra hospitallarında həyata qaytaranlarımız, müalicə edənlərimiz haqqında eşitdiklərimi, təkcə vəzifə borcunu deyil, həm də vətəndaşlıq borcunu yerinə yetirənlərimizmi? "Vətən!" deyən, "Torpaq!" deyən yaralı əsgərlərin harayımı? Göy üzünü əridən ana fəryadımı, bacı naləsimi? - həkim (həm də hərbçi həkim!) olmağı qərarlaşmışdı; Vətənin keşiyini çəkənlərimizin, torpaqlarımızı işğaldan azad etmək amalıyla xidmət edənlərimizin - Böyük Qələbənin zabit və əsgərlərinin sağlamlığına xidmət edəcəkdi!

1994-cü ildə Gülhanə Hərbi Tibb Akademiyasına daxil oldu. Həmin gün Əlövsət oğlu Səməd gömgöy göy üzünün göylüyündə yerə-göyə sığışmayan fidan niyyətinin işığını gördü. Ağ işığıydı və yozumsuz dünyada Masallıdan böyük dünyaya aparan yolu qüdrətiylə nurlandırmaqdaydı. Bu ecazkar görüntünü niyyətinin duruluğuna yozurdu...

Bu da arzuların şəhəri!

Bu da marağın istəyə döndüyünün məkanı olacaq Gülhanə Hərbi Tibb Akademiyası!

Təhsilin ilk illərində genetikayla maraqlanırdı. Maraq - istək - niyyət dialektikası var və Səməd bu tezisin ilkinindən o yana getmədi. Niyə? - hocası (müəllimi) paşa (general) Ərsoy İşıqlıyla, albay (polkovnik) Atilla İyisoyluyla tanışlıq, onların mühazirələri, mühazirələrdən sonra Səmədin xahişiylə elmi söhbətləri marağının - hələ istəyə çatmayan niyyətinin yönümünü dəyişdi. Bu biliklə, bu öyrənmək yanğısıyla genetik də ola bilərdi - genetik uzman Səməd Səmədli də ola bilərdi, kardeologiyanı seçdi, kardeoloq oldu (və nə yaxşı kardeoloq oldu!).

Niyə məhz kardioloq? - müəllimlərinin söhbətləri, mühazirələri öz yerində, bilirdi ki, insanın hər ağrı-acısının cəfasını ürək çəkir; insanın insana (insanlığa), bəşərə (bəşəriyyətə) münasibətini ürək müəyyənləşdirir. Ünlü uzman Anar Əmrahın təəbirincə desək, Səməd də ürəklərin keşiyini çəkmək istəyib. Bu istəklə, bu niyyətlə yaşayanlar cəmiyyətin mənəvi, mənəvi-tibbi (anatomik) üreyinə dönür.

Ürək uzmanıdı Səməd Səmədli. Ürəyi müayinə edəndə aşkarladığı hər qüsur özünün ürək ağrısına dönür. Aşkarladığı qüsurun necə aradan qaldırılması çək-çevirini yaşaya-yaşaya gərdişin yönümünü dəyişdirir. Uzmanlığı (loğmanlığı) şərtləndirən bu amil həm də vətəndaşlıqdan rişələnir; ürək xəstəlikləri, ürək qüsurları ilə mübarizə əsgəridi (sərkərdəsidi) tibb xidməti mayoru Səməd Səmədli. Səməd Səmədli belə həkimdi, belə loğmandı, belə vətəndaşdı; Səməd Səmədli Harun Tatar demişkən, öz işini bəyənir, demək insanlığı (bəşəriliyi) sevir, tanıdıqlarının, tanımadıqlarının ürək ağrılarından qurtuluşunun cəfakeşidi. Bu cəfakeşlik Azərbaycan Ordusuna cəfakeşlikdi, Böyük Qələbəyə cəfakeşlikdi. Bu cəfakeşlik təbabətə sədaqətin cəfakeşliyidi...

"Sənə müraciət edənləri əzizin bilməlisən", - tibb xidməti mayoru uzman Səməd Səmədli belə deyir. Yadıma Sədrəddin Ayninin "Balaca və Xallı" əsəri düşür. Əsərin qəhrəmanı həkimdi. Müəllimini əməliyyat edəndə dediklərini xatırlayıram: "Cərrah (həkim - **R.H.**) digərləri ilə müqayisədə əzizini əməliyyat (müayinə, müalicə - **R.H.**) edəndə daha çox həyəcanlanır". Səməd Səmədli kimi müraciət edənlərin hamısını əzizi bilən uzmanlarda belə həyəcanların ömrü əməliyyata (müalicəyə) qədərdi. Həkim olur, finendoskop (cərrah bıçağı) olur, bir də xəstəlik. Həkim xəstəliyin mənşəyini, durumunu müəyyənləşdirir, onun ləğviylə mübarizə aparır. Bu mübarizə xəstənin ömrünə ömür vermək niyyətidi. Səməd həkim bu niyyətlə yaşayır - yaşadır, bu niyyətlə yaşadır - yaşayır...

...On yaşlı uşağı müayinə (angioqrafiya) edirdi. Dəhşətə gəlmişdi - uşağın ürəyini qidalandıran damar tutulmuşdu. Kövrəldiyini assistentlər hiss etməmişdi. Həmin anlarda ürəyi kürlük etmişdi. "Bu yaşda uşağın ömrünə çökməkdə olan təhlükəni - əməliyyat zərurətini ata-anasına, əzizlərinə necə deyim? Demərəmsə, necə deməyim?" - ürəyini çarəsizlik sıxıntıları göynədirdi; uşaq əməliyyat olunmalıydı...

Aradan illər keçib...

Həmin uşaq yaşadı. Bəlkə də indi tələbədi. Bəlkə də həkim olacaq; "bəlkə"siz Səməd Səmədlini də xatırlayır, şübhəsiz, onun "Sən yaşayacaqsan!", - ümidini də...

Şətrənc adıyla yaranan, şahmat adıyla yaşadılan təfəkkür oyununu Səməd Səmədli də çox sevir. Bu, xəstəliklə mücadilədə - çarə axtarışında ən gərəklisini tapmağa sövq edən sevgiydi. Gülhanədə bu qabiliyyəti ilə də fərqlənib. Az sonra aşağı kursda oxuyanların püxtələşməsinə cəlb olunub - komandanın kapitanı olaraq. Bu, geniş erudisiyaya malik olmağın nəticəsiydi. "Hər qələbə növbəti qələbənin başlanğıcıdı, növbəti uğur əvvəlkinə söykənir...", - Səməd Səmədli belə deyir. Həm də gözəl deyir. Bu fikri şahmatdan təbabətə də köçürmək suç deyil - hər dəqiq müayinə, hər uğurlu müalicə növbəti uğurlara stimuldu...

... Qədim yunan mütəfəkkiri Esxil deyirdi ki, hər şey dəyişir. Günah olmasa hər şey yox, çox şey dəyişir deyərdim. Dəyişməyənlərdən biri də ata ömrünü şərtləndirən məqamlara, bu məqamların mahiyyətinə sevgidi, sədaqətdi; Səməd atası Əlövsət həkimin yolunun davamçısı oldu, Zeynəb atası Səməd həkimin yolunu davam etdirmək istəyir. Bu istəyin niyyətləşəcəyinə, murazlaşacağına necə inanmayasan? - 11 yaşlı uşaq atasına tez böyümək istədiyini deyir. Zeynəb "Niyə?" sualına bir qədər çəkingənliklə, bir qədər inamla "Sənin kitablarını oxumaq üçün, ata...", - deyir.

Bu kitablar təbabətə aiddi...

Oğlu Abdullah nə deyəcək? - onu zaman göstərər...

Tibb xidməti mayoru Səməd Səmədli hərbi səhiyyənin bu səviyyədə inkişafına görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdar olanların sırasındadır.

Poeziyanı sevir. "Yağışdan sonra göy üzünə sarılan göy qurşağını hamımız çox görmüşük. Onun sözlə təsvirini - "Belə də şahanə gəliş olarmı, Başına tac qoyub qövsi-qüzehdən!" misralarını necə düşüncələrinə hopdurmayasan? Və yaxud, qışda şaxta qayalardan aşıb tökülən dağ çayını da dondurur. Bu görüntünün "Dağ çayı saçından dara çəkilib" kimi təqdimi necə könlünə yatmaya bilər?", - Səməd Səmədli belə deyir. Həm də deyir ki, Anar Əmrah kardeoloqların fəaliyyətini bir fikirlə olduqca mükəmməl ifadə edir: Ürəklərin keşiyini çəkirik. Mən həm kardeoloq olduğuma görə, həm də hərbçi olduğuma görə taleyimdən razıyam. Bu kəlmələr şükranlıqdı...

Düzgün, əhatəli kəşfiyyat həmlənin, hücumun, müayinə müalicənin uğurla nəticələnməsinə vəsilə olur. Bu anlamda kəşfiyyatla müayinə kəlmələri arasında məzmun uyğunluğu var deyə bilərikmi? - bilərik...

- Ali Baş Komandanın "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" - kəlamını həmişə qürurla xatırlayırıq. Azərbaycan Ordusunun və Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlar möhtəşəmliklə təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Belə bir ordunun zabiti olmağımla qürurlanıram", - tibb xidməti mayoru Səməd Səmədli də qüdrətli Azərbaycan Ordusuyla qürurlanır...

"Yaşada-yaşada yaşamaq gözəl ömürdü" kəlamını ömür düsturu bilən tibb xidməti mayoru Səməd Səmədli bu niyyəti gənc həmkarlarına da, uşaqlarına da aşılayır. Həm də əsl vətəndaşlığa sədaqət kimi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 yanvar 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***15 yanvar 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikasında dövlətin gənclərə qayğı və diqqəti. 2 Fevral Gənclər Günüdür.

**Suallar:**

**1. Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin gənclərimizə qayğısı və diqqəti.**

**2. Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.**

**3. Müstəqilliyimizi qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.**

*Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin gənclərimizə qayğısı və diqqəti*

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir xalq üçün ən başlıca məsələdir. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyəti hərəkətə gətirən qüvvəsi və yaşlı nəslin davamçısı hesab olunur, gənclər cəmiyyətin ən dinamik qüvvəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar.

Müstəqilliyin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçmədi. Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz gedirdi. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olub.

Azərbaycan gəncliyində müstəqilliyimizin bərpası ilə yeni prinsiplər və həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Bu sistem fəaliyyət istiqamətlərinə, məqsəd və vəzifələrinə görə bir-birindən fərqli yeni gənclər təşkilatlarının yaranmasına təkan vermiş oldu. Lakin 1991-1993-cü illərdə respublikada hökm sürən hərcmərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Respublikamızda gənclərlə iş sahəsində yaranmış boşluq yalnız 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı və gənc nəslə qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz 1993-cü ildən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

Ölkə rəhbərliyinə gəldikdən az sonra 1993-cü il sentyabrın 23-də gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirən ulu öndər Heydər Əliyev tərəfindən 26 iyul 1994-cü il tarixdə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanın imzalanması respublika gənclərinin fəaliyyətinin təşkilatlanması istiqamətində ilk addım oldu.

Cəmiyyətdə gənclərin rolunun genişləndirilməsi istiqamətində növbəti addım isə 1996-cı il fevralın 2-də ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının Gənclərinin I Forumunun keçirilməsi oldu. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Əbədiyaşar lider Heydər Əliyev forum iştirakçıları qarşısında proqram xarakterli nitq ilə çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunun qəbulu və 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Fərman gənclərimizə göstərilən diqqətin daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II Forumu keçirildi. Forumun işində iştirak edən ulu öndər Heydər Əliyev gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu. Forumun qəbul etdiyi sənədlər növbəti mərhələdə gənclərlə işin yeni əsaslar üzərində qurulmasını təmin etdi.

1999-cu il iyulun 29-da ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" Fərman dövlət gənclər siyasətinin həyata keçirilməsində keçmişimiz və bu günümüzlə bağlı tarixi, mənəvi-əxlaqi, mədəni dəyərlərimizin daşıyıcıları olan gənclərə diqqətin artırılması üzrə dövlət orqanlarının vəzifələrini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli Fərmanı ilə uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün gənclər siyasətini tənzimləyən "Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanuna əsasən, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi - gənclərin sosial, fiziki, mənəvi problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərərək, bacarıqlarını reallaşdıra bilmək üçün şərait yaratmaqdır. Qanunla Azərbaycan gənclərinin xalqımızın tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas prinsiplər kimi müəyyənləşdirilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq və gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
- gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;
- gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;
- gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;
- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Bunlar ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji hədəflər olub ki, bu gün də Azərbaycan gəncliyi bu hədəflərə doğru inamla irəliləyir.

*Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir*

Bu gün Azərbaycanda gənclər dövlət siyasətinin mühüm hissəsini təşkil edir və bu sahədə praqmatik siyasət yürüdülür. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər müasir dövlət quruculuğu prosesində gənc nəsli daha da ön plana çəkir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyətə gəlişi ilə gənclər siyasəti daha da şaxələnərək, yeni verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəldi. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev qərarları ilə ulu öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Məhz 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış Sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Ölkə rəhbəri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. Həmçinin, 2007-ci ilin ölkədə "Gənclər İli" elan edilməsilə Prezident cənab İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini ortaya qoymuş oldu. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsilə dövlət başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətin əyani təzahürü oldu. Bunlarla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün Gənclər Mərkəzinin, Gənclər Fondunun və Gənclər Evinin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər. Nəticədə, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi nəticəsində Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissini artırıb. Bu illər ərzində gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiyadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

Gənclərin mənəvi-əxlaqi və hərbi vətənpərvərlik tərbiyəsi, onların ordu sıralarında xidmətə hazırlanması işinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yerli idarələri, təhsil müəssisələri və hərbi hissələrlə birlikdə tədbirlər keçirirlər. 1995-ci ildən etibarən orta ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında "Şahin" hərbi-idman oyunları, 1998-ci ildən isə VII-IX sinif şagirdləri arasında "Cəsurlar" hərbi-idman və turizm oyunları keçirilir.

*Müstəqilliyimizi qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusunun öz konstitusiya borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətinin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummili lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

Gənc nəslin məhz hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması xalq və dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi istiqamətində Azərbaycan Ordusunda geniş tədbirlər həyata keçirilir. Bu baxımdan təkcə 2018-ci il ərzində demək olar ki, bütün rayonlarda dövlət qurumları və ictimai təşkilatlarla birlikdə Müdafiə Nazirliyi tərəfindən təşkil olunaraq hərbi vətənpərvərlik mövzusunda keçirilmiş kütləvi tədbirlər, ordu həyatı ilə cəmiyyətin, xüsusən onun aparıcı qüvvəsi olan gənc nəslin yaxından tanış edilməsi üçün kütləvi informasiya vasitələrinin və ictimaiyyət nümayəndələrinin cəbhə xəttində yerləşən hərbi hissələrə ziyarətləri gənc nəslin mübariz ruhda yetişdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan gənclərinə gündən-günə artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. Atılan addımlar və görülən tədbirlər bu gün öz bəhrəsini verir.

Aprel döyüşlərində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin hamı bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi Heydər Əliyev kursunun və İlham Əliyev siyasətinin təntənəsidir.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi kimi müqəddəs bir vəzifə durur. Bu vəzifəni yerinə yetirəcək insanlar isə birinci növbədə Azərbaycanın vətənpərvər gəncləridir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Heç kim unudulmur*

# Şəhidin anım günü



Vətən üçün yaşanılan ömürlər unudulmur...
Şəhidlər unudulmur...
Şəhidləri unutmuruq...

Fehruz Alışov 1964-cü ildə Kəlbəcərdə anadan olmuşdu. Burada böyümüşdü, boya-başa çatmışdı. Azərbaycan Neft və Kimya İnstitutunda təhsil almışdı. Təyinatla Omsk şəhərində işləyirdi. Azərbaycanda vəziyyət gərginləşəndə, Ermənistan elan etmədən müharibəyə başlayanda düşüncələrindən dikələn hesiyyətin harayını eşidə bildi, Azərbaycana qayıtmağı qərara aldı. Qayıtdı. Yerli özünümüdafiə batalyonuna yazıldı. Ehtiyatda olan zabitiydi, zabit kimi hərbi xidmətə başladı.

Neçə-neçə ağır döyüşlərdə iştirak etdi. Qorxmaz, igid zabit kimi sevilirdi kapitan Fehruz Alışov. Hər döyüşü son döyüş bilib döyüşürdü. Hər döyüşü işğalın yolunu kəsəcək döyüş bilib döyüşürdü...

Ağdərədə döyüşdü...
Laçında döyüşdü...
Kəlbəcərdə döyüşdü...

1994-cü ildə "İgidliyə görə" medalıyla təltif edilmişdi.

1994-cü il fevralın 8-də döyüşdə şəhid oldu...

Gəncə şəhərində ictimaiyyətin nümayəndələri, döyüş yoldaşları şəhid kapitan Fehruz Alışovun anım gününə toplaşdılar.

Tədbiri Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyev açdı və Fehruz Alışovun ömür yolundan, döyüş yolundan danışaraq qeyd etdi ki, belə bir igidin ömür yolu gənclər və yeniyetmələr üçün əsl örnəkdir.



Şair-dramaturq Eldar Həsənov, şair Ramiz Təmkin, döyüşçü Akif Kamalov, Kəlbəcər rayon Mədəniyyət şöbəsinin müdiri Akif Bayramov çıxışlarında qəhrəman haqqında xatirələrini danışdılar.

Novruz Alışov qardaşının xatirəsini unutmadıqlarına görə tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Gənclər Gününə həsr olunan musiqi müsabiqəsinin birinci turu təşkil edilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə 2 Fevral Gənclər Gününə həsr olunan musiqi müsabiqəsinin birinci turunun ilk konserti keçirilib. Konsert "N" hərbi hissəsinin Əsgər klubunda təşkil olunub. Müsabiqəyə Qazax, Gədəbəy rayonlarından hərbi qulluqçular və gənclər qatılıb.

Bu müsabiqə milli mədəniyyətin və incəsənətin, eləcə də hərb ənənələrinin və hərbi xidmətin təbliği, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyələndirilməsi və yaradıcılıq bacarıqlarının inkişafı, hərbi kollektivlərin möhkəmləndirilməsi, hərbi hissələrdə bədii özfəaliyyət kollektivlərinin yaradılması və hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçirilməsinin təşkili ilə yanaşı, ordu ilə cəmiyyət arasında əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə keçirilir.

İştirakçılar müsabiqə şərtlərinə uyğun olaraq vokal, rəqs, musiqi alətləri və bədii qiraət üzrə çıxış ediblər. Münsiflər heyəti tərəfindən əsasən musiqi alətlərində fərqli ifaya, səhnə davranışına üstünlük verilib. Maksimal bal toplayan 78 iştirakçı müsabiqənin növbəti mərhələsinə vəsiqə qazanıblar. Ümumilikdə müsabiqədə 154 nəfər iştirak edib.



Sonra müsabiqədə iştirak edən gənclər və hərbi qulluqçular birgə nahar ediblər.

Əsl musiqi bayramına çevrilən müsabiqə hərbi qulluqçuları və istedadlı gəncləri öz ətrafında toplayaraq onların peşəkar yüksəlişinə, təcrübə mübadiləsinə zəmin yaradır.

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində xidmət edən hərbi qulluqçu bıçaqlanıb.

Hərbi prokurorluq başqa bir cinayəti araşdırarkən təsadüf nəticəsində digər bir bıçaqlanma hadisəsi ortaya çıxıb. Hadisə uzun müddət hüquq-mühafizə orqanlarından gizlədilib.

Faktla bağlı cinayət işi açılıb və Manuk Mirzoyan adlı hərbi qulluqçu istintaqa cəlb edilib. Hadisənin digər iştirakçılarının müəyyən edilməsi məqsədilə araşdırma davam edir.

* * *

Ermənistan ordusunun bölmələrində qeyri-döyüş şəraitində, özbaşınalıq və qanunsuzluqlar səbəbindən ölən və yaralananların sayı artmaqda davam edir.

Ermənistan saytlarında və sosial şəbəkələrdə yayılan məlumatlardan məlum olur ki, 2018-ci ilin dekabr ayı ərzində qeyri-döyüş şəraitində düşmən ordusunun 7 hərbçisi ölüb.

Hərbi qulluqçu Qor Sarkisyan naməlum şəraitdə aldığı güllə yarasından, Hayk Karamyan isə qar uçqunu nəticəsində həyatını itirib. Eyni zamanda yol-nəqliyyat qəzası nəticəsində 3 hərbçi də ölüb.

Dekabrda Ermənistan ordusunda ən qalmaqallı hadisə isə Gümrü aerodromunda təlim uçuşları yerinə yetirən Su-25 təyyarəsinin qəzaya uğramasıdır. Hadisə nəticəsində döyüş təyyarəsinin ekipaj üzvləri polkovnik-leytenant Armen Babayan və mayor Movses Manukyan ölüblər.

Qəzanın səbəblərinin araşdırılmasının ləng getməsi artıq həlak olan zabitlərin yaxınlarının haqlı narazılığına səbəb olub. Sosial şəbəkələrdə təyyarənin qəzaya uğramasının texniki nasazlıq və istismara yararsız olması səbəbindən baş verdiyi barədə xəbərlər yayılıb.

Dekabrın 15 günü ərzində düşmən ordusunda qeyri-döyüş şəraitində, özbaşınalıq və qanunsuzluqlar səbəbindən ölənlərin sayı 7, yaralananların sayı isə 10 nəfərdir.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən düşmən ordusunun bölmələrində ağır xidmət şəraitindən, təhqirlərdən və fiziki işgəncələrdən bezərək xidmət yerini özbaşına tərk edənlərin sayı armaqda davam edir.

Beşinci dağatıcı alayının hərbi qulluqçusu Mesrop Vartanyan döyüş postunda növbədə olarkən silahını ataraq xidmət yerini özbaşına tərk edib. Şəxsi heyət çatışmazlığı səbəbindən gənc əsgərləri hətta təlim kursu bitirməmiş belə döyüş mövqelərinə yerləşdirirlər.

Hərbi hissə tərəfindən gənc əsgərin axtarışı və xidmət yerinə qaytarılması istiqamətində işlər aparılsa da, əsgərin valideynləri övladlarının qaçma səbəbinin hüquq-mühafizə orqanları tərəfindən araşdırılmasını tələb edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə qırıcıları 3 terrorçunu məhv edib



Türkiyə Silahlı Qüvvələrinin (TSQ) qırıcıları İraqın şimalında yerləşən Zap və Sinat-Haftan bölgələrində terrorçu düşərgələrinə dəqiq zərbələr endirib.

Nəticədə terror hazırlığında olan 3 terrorçu məhv edilib.

Digər bir rəsmi məlumatda isə bildirilir ki, Adana şəhərində keçirilən antiterror əməliyyatında 16 nəfər şübhəli qismində həbs olunub. Bundan başqa, TSQ Türkiyənin Hatay bölgəsinin Suriya ilə sərhədinə ağır hərbi texnika toplamaqdadır. Suriya ərazisində keçirilməsi ehtimal olunan növbəti antiterror əməliyyatına hazırlıq işləri KİV tərəfindən diqqətlə izlənilməkdədir.

### Yaponiya elektron müharibə üçün zərbə təyyarələri yaratmağı planlaşdırır



Yaponiyanın hakimiyyət orqanları düşmənin radarlarını və rabitə sistemini sıradan çıxaracaq zərbə təyyarələri yaratmağı planlaşdırır.

Bu barədə yanvarın 13-də "Yomiuri" qəzeti məlumat yayıb.

Qəzetin Müdafiə Nazirliyindəki mənbələrə istinadla yaydığı məlumatda qeyd edilir ki, həmin avadanlığın hazırda Yaponiya özünümüdafiə qüvvələrinin hava və dəniz bölmələrində istismarda olan nəqliyyat və patrul təyyarələrində quraşdırılması nəzərdə tutulur.

"C2 təyyarəsi əsasında yaradılacaq yeni modelin 2027-ci maliyyə ilində istifadəyə verilməsi planlaşdırılır. F1 təyyarəsi əsasında yaradılması nəzərdə tutulan digər model üzərində isə işlər davam etdirilir", - deyə qəzet yazır.

Bildirilir ki, elektron müharibə üçün Yaponiyada müvafiq vasitələr artıq var, lakin onlar müdafiə xarakterlidir. Onlardan biri kimi, düşmənin artıq buraxılmış ballistik raketlərinin idarəetmə sistemini sıradan çıxaran avadanlığı xatırladır.

"Yeni təyyarələrin məqsədi isə əsasən, Çin və Rusiya tərəfindən artmaqda olan elektron müharibə imkanlarının məhdudlaşdırılmasıdır", - deyə qəzet yazır.

### İranın Hərbi Dəniz Qüvvələrinin istifadəsinə “Fateh” adlı yeni sualtı qayıq veriləcək



İranın Hərbi Dəniz Qüvvələrinin istifadəsinə "Fateh" adlı yeni sualtı qayıq veriləcək. Yanvarın 29-da istismara veriləcək qayıq tamamilə İranın milli istehsalıdır.

Bu barədə açıqlama verən İranın Hərbi Dəniz Qüvvələri komandanı admiral Hüseyn Hanzadə qayığın Atlantik okeanına göndəriləcəyini bildirib.

Admiral qeyd edib ki, ağırlığı 527 ton olan sualtı qayıq 250 metr dərinlikdə saatda 25,9 kilometr üzmək imkanına malikdir. Bundan başqa yeni qayıq təchiz olunan elektron cihazlarla suyun altından yerin üzərindəki hədəfləri vura bilir.

### Dünyanın ən uzun təyyarəsi hazırlanır



Dünyanın ən uzun təyyarəsi "Airlander 10" modeli üzərində işə başlanılır.

İngiltərənin Bedfordşayr əyalətində yerləşən Hibrid Hava Vasitələri yeni bir sənət əsəri üzərində işə başlamaq üçün Sivil Aviasiya İdarəsindən dəstək aldıqlarını söyləyiblər.

Hibrid Hava Vasitələri şirkətinin icraçı direktoru Stiven Maqlenan dünyanın ilk tam həcmli hibrid təyyarəsini istehsal standartlarına uyğunlaşdırmağa çalışdıqlarını bildirib.

2020-ci ildə yeni modelin səmaya qalxması planlaşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# Müntəzəm məşqlər döyüş hazırlığı üçündür





Sağlam gənclik sağlam gələcək deməkdir. Gənc nəslin sağlam olması hər bir dövlət üçün təməl prinsiplərdəndir. Sağlamlığın əsasını təşkil edən amillərdən biri də idmandır. İdmanla müntəzəm məşğul olan hər kəs sağlam bədənə və immunitetə malikdir. Bu gün rəhbərlik tərəfindən gənc nəslin idmana olan marağının artırılmasına yönəlik xeyli işlər görülür. Şagird və tələbələrimizin oxuduğu təhsil ocaqlarında müasir idman zalları fəaliyyət göstərir. Ölkəmizdə idmanın inkişafı üçün idman məktəbləri və beynəlxalq turnirlərin təşkil olunması üçün idman kompleksləri mövcuddur. Dövlətin gənc nümayəndələrinin sağlam ruhda böyüməsi və idmana marağının artması üçün görülən işlərin məntiqi nəticəsidir ki, beynəlxalq arenalarda yarışan idmançılarımız ölkəmizi layiqincə təmsil edir, Dövlət bayrağımız yüksəkdə dalğalanır və himnimiz səsləndirilir.

Ölkəmizdə idmanın inkişafı ordumuza da öz müsbət təsirini göstərir. Dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusunun şəxsi heyətinin fiziki hazırlıq göstəriciləri rəhbərlik tərəfindən qarşıya qoyulan vacib məsələlərdəndir. Ona görə də, hərbi hissələrdə, hərbi təyinatlı təhsil müəssisələrində hərbi qulluqçuların idmanla məşğul olmaları üçün idman şəhərcikləri və trenajor zalları tikilir. Şəxsi heyətin fiziki hazırlığını diqqətdə saxlamaq üçün Azərbaycan Ordusunda gündəlik fiziki hazırlıq dərsləri, həftəlik kütləvi idman tədbirləri, aylıq ordu birincilikləri (müxtəlif idman növləri üzrə) təşkil olunur.

Ön xətdə yerləşən bölmələrimizin birində fürsətdən istifadə edib əsgərlərimizin fiziki hazırlığından yazı hazırlamaq qərarına gəlirəm. Gizir Vüqar Məcidovun rəhbərliyi altında şəxsi heyət ardıcıllıqla müxtəlif çalışmaları icra edirlər. Turnikdə və paralel qollarda müxtəlif çalışmaları icra edən əsgərlərin fiziki hazırlıqlı olması ilk dəqiqələrdən hiss olunurdu.

Dərsin rəhbəri gizir Vüqar Məcidov ilə tanış oluram. O qeyd etdi ki, döyüş hazırlığının mühüm tərkib hissələrindən biri olan fiziki hazırlıq daim diqqətdə saxlanılmalıdır. "Məlumdur ki, döyüş hazırlığı ilə fiziki hazırlıq qarşılıqlı vəhdət təşkil edir. Döyüşdə qələbəni sürətləndirən amillərdən biri fiziki hazırlıqdır. İdmanla mütəmadi məşğul olmaq əsgərlərin tapşırıqları çevik və cəld şəkildə yerinə yetirməsinə yardımçı olur. Biz bölməmizdə şəxsi heyətin fiziki hazırlığını daim nəzarətdə saxlayırıq. Fiziki hazırlıq səviyyəsi yüksək olan əsgər istənilən tapşırığın öhdəsindən gəlməyi bacarır. Hərbi hissəmizdə şəxsi heyətin müntəzəm idmanla məşğul olması üçün müasir idman şəhərciyi var. Dərslərimizin səmərəli, faydalı keçirilməsi üçün idman çalışmalarını yarış formasında təşkil edirik. Mübarizə olan yerdə hər kəs yüksək nəticə göstərməyə çalışır və bu, əsgərləri daha yüksək nəticələrə ruhlandırır. Təbii ki, yoldaşlıq şəraitində keçən mübarizələrdə aşağı nəticə göstərənlər də xidmət yoldaşları tərəfindən ruhlandırılır. Beləliklə, zəif nəticə göstərən əsgər öz üzərində daha da çalışaraq normativə uyğun göstərici əldə edir.”

Gizir Vüqar Məcidov onu da bildirdi ki, bölmələrində ölkədaxili, beynəlxalq turnirlərlə yanaşı, ordu birinciliklərində də yüksək nəticə göstərmiş hərbi qulluqçular xidmət edir. Əsgər Arif Nuriyev sərbəst güləşlə məşğul olub. Respublika və beynəlxalq turnirlərin qalibi olan həmsöhbətim vurğuladı ki, sərbəst güləş üzrə ordu birinciliyində də qızıl medala sahib olub. İdman mövzusunda kifayət qədər təcrübəsi olan əsgər A.Nuriyev hərbi hissədə yaradılan şəraitlə də bağlı məmnunluğunu ifadə etdi.

Əsgər Murad Hüseynov da güləşçidir. Güləşin yunan-Roma növü üzrə Muradın bir çox uğurları var. Əsgər qeyd etdi ki, bu gün ordu sıralarında olsa belə məşqlərini burada davam etdirir. Fiziki hazırlığın önəmindən bəhs edən əsgər düşməni istər turnirlərdə, istərsə də döyüş meydanında məğlub edə biləcək gənclərimizin olduğunu bildirdi. O, düşmən üzərində qələbə qazanacağımız günün uzaq olmadığını qeyd etdi. "Bölməmizin şəxsi heyəti təkcə dərslərdəki qazandığı biliklərlə kifayətlənmir. Biz komandirlərimizin rəhbərliyi altında müntəzəm olaraq idmanla məşğul olub fiziki hazırlığımızı daha da artırırıq. Bunun üçün hərbi hissədə yaradılmış idman şəhərciyində məşq edirik. Əminliklə demək olar ki, bölməmizin bütün əsgərləri normativləri rahatlıqla yerinə yetirirlər. Bu da sübut edir ki, Azərbaycan əsgəri xalqımıza Böyük Qələbənin sevincini yaşadacaq."

Əsgərlər Arif Nuriyev və Murad Hüseynovun digər xidmət yoldaşları da onların sözlərinə qoşularaq, xalqımıza tezliklə işğal altında olan torpaqlarımızın azad olunacağı günün müjdəsini verəcəklərini dedilər.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Hərbi yanğınsöndürmə maşını



Xüsusi yanğınsöndürmə maşını Rusiya tanklarının əsas istehsalçısı olan "Uralvaqonzavod" konstruktorları tərəfindən hazırlanıb. Onun hazırlanmasında məşhur T-72 və T-80 döyüş maşınlarının xətt və aqreqatlarından istifadə edilib. Maşının heyəti yanğın ocağını üç üsulla aşkar edə bilir - vizual olaraq güllə keçirməyən termodavamlı şüşələr vasitəsilə, dairəvi görünüşlü dördqatlı kamera və iki teplovizorun köməyi ilə. "Terma" oda (alova) qarşı boya maşının korpusunu iki saat ərzində qızmaqdan qoruyur. Üç nəfərdən ibarət maşının heyəti bir çox zədələrdən qorunmaq üçün xüsusi qoruyucu geyimlə komplektləşdirilib. Döyüş sursatlarının partlaması hallarında yanğınsöndürən maşın davamlı olaraq qəlpə əleyhinə zirehli ekranla mühafizə olunur. Hansı ki, bu ekran 152 mm-lik mərminin partlayışına davam gətirə bilir. Bundan başqa, yanğınsöndürmə maşını mühəndis cihazlanmasına görə qalaqlanmış yerləri təmizləməyə və daşlaşmış yerləri düzləşdirməyə də qadirdir. Ekstremal vəziyyətdə heyət maşından çıxa bilmirsə, bunun üçün distansion idarə edilmə nəzərdə tutulub. Yanğınsöndürmə maşınının çəkisi 60 tondur və 25 kubmetr həcmində ehtiyat odsöndürən maye ilə təmin edilib. İrihəcmli nasosun köməyi ilə yanğın ocağını 100 metrlik məsafədən maye ilə söndürə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# MSN ilə Türkiyənin “Aselsan” şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair müqavilə imzalanıb

Yanvarın 14-də Türkiyədə səfərdə olan Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin (MSN) nümayəndə heyəti bu ölkənin müdafiə sənayesi üzrə aparıcı şirkətlərindən olan "Aselsan"ı ziyarət edib.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin "Aselsan" şirkətinin rəhbərliyi ilə görüşü təşkil olunub. Görüşdə nazirliyin müəssisələri ilə "Aselsan" şirkəti arasında icra olunmuş layihələrin əhəmiyyətindən danışılıb və yeni layihələrin icrasının önəmi vurğulanıb. Eyni zamanda, uzun müddətdir müzakirəsi aparılan müxtəlif növ rabitə vasitələrinin birgə istehsalının təşkilini nəzərdə tutan layihə üzrə qarşılıqlı razılıq əldə olunub.

Sonda Müdafiə Sənayesi Nazirliyinin "Cihaz" İstehsalat Birliyi ilə "Aselsan" şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair müqavilə imzalanıb.

# Ermənistanda etiraz aksiyaları səngimir

Ermənistanda davam edən etiraz aksiyalarının növbəti biri də Eçmiədzində keçirilib. Yanvarın 12-də Yerevan-Eçmiədzin magistral yolunu bağlayan etirazçılar girov müqabilində həbsdən azad olunduğu iddia edilən general Manvel Qriqoryanın dərhal istintaq təcridxanasına qaytarılmasını tələb ediblər.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, insidentin qarşısını almaq və yolu açmaq üçün əraziyə cəlb olunmuş polislərlə aksiya iştirakçıları arasında qarşıdurma olub. Yerevanın əsas aeroportu olan "Zvartnots"a gedən yol da bağlandığından etirazçıları dağıtmaq üçün əlavə polislər gətirilib. Uzunsürən danışıqlardan sonra aeroport yolunu açmaq mümkün olub.

General Qriqoryan qanunsuz silah saxlama və hərbçilərin ərzaq payını mənimsəmə ittihamları ilə həbs olunmuşdu.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 15
Nüsxə 3950